

# HAMLET İSAXANLI: "TEST ÜSULU LƏĞV OLUNA BILMƏZ"

*2017-ci il avqustun 24-də Xeber365 saytında Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə dərc olunmuş müsahibəni təqdim edirik.*

Dövlət İmtahan Mərkəzi Direktorlar Şurasının sədri Məleykə Abbaszadənin iki il sonra buraxılış və qəbul imtahanlarında yeni modelin tətbiq ediləcəyi ilə bağlı açıqlaması cəmiyyətdə narahatlıq doğurub. *Xeber365.com* məsələ ilə bağlı Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə əlaqə saxlayıb. H. İsaxanlı bildirib ki, test üsulu tamamilə ləğv edilə bilməz:

"Mən bu açıqlamanın tam mətni ilə tanış deyiləm. Ona görə də düşünürəm ki, Məleykə xanım, yəqin, test üsuluyla bağlı yeni qaydaların tətbiq olunacağını deyib. Düşünmürəm ki, 2 il sonra test üsulu tamamilə ləğv olunacaq. Sadəcə, qaydalar xeyli fərqli ola bilər. Bu yeni qaydalarda bəlkə iki dəfə, həm orta məktəbi bitirəndə, həm də ali məktəbə qəbul üçün imtahan vermək olmayacaq. Yəqin ki, bir dəfə imtahan veriləcək və mən elə hesab edirəm ki, test üsulu bu imtahan metodlarından biri olacaq. Yəni müsahibə və digər üsullar da ola bilər. Mən belə başa düşürəm. Yoxsa test üsulu tamamilə ləğv edilə bilməz".

Hamlet İsaxanlı hesab edir ki, ali məktəbə yalnız test üsuluyla qəbul orta məktəblərdə bilik səviyyəsinin aşağı düşməsinə səbəb olur:

"Ancaq test yolu ilə universitetə qəbul özlüyündə orta məktəblərin səviyyəsinin aşağı düşməsinə səbəb olur. Çünki orta məktəbdə uşaq oturub ciddi elmi biliklər əldə etmək əvəzinə, test suallarına hazırlaşır. Buna görə məktəblərdə doğru-düzgün dərs keçilmir və müəllimlər də repetitor şəklində uşaqları test imtahanına hazırlaşdırırlar. Bu, elm öyrənmək deyil. Bu özü, müəyyən mənada, fundamental elm öyrənməsinə ziyan vuran bir şeydir. Ona görə də, qəbul imtahanı gərək təkcə testdən ibarət olmasın, esse yazılsın, ciddi bir müsahibə aparılsın ki, şəxsi kefiyyətləri də müəyyən etmək olsun. Bu, daha geniş yanaşma olardı".*http://xeber365.com/haber-hamlet-isaxanli-test-usulu-l-gv-oluna-bilm-z-11369.html#Kalibri*

Avqustun 24-də professor Hamlet İsaxanlı *sherg.az* saytının da eyni məzmunda sorğusunu cablandırıb. Tam mətni aşağıdakı link vasitəsilə oxumaq olar:*http://www.sherg.az/site/id-35701/Testin_l%C9%99%C4%9Fvind%C9%99n_sonra_q%C9%99bul_prosesi_nec%C9%99_apar%C4%B1lacaq_?_-_Professor_#Kalibri*

# PROFESSOR HAMLET ISAKHANLI'S RESPONSE TO THE QUESTION OF *XEBER365* WEBSITE

On 24 August, 2017, Xeber365 put a question to Professor Hamlet Isakhanli, the founder of Khazar University, chairman of its Board of Directors and Trustees, regarding the opinion 'A new model will be applied in graduation and admission exams in two years' produced by Maleyka Abbaszadeh, Head of the State Examination Center Board of Directors.

The professor said, in his opinion, the test method cannot be totally removed, it can be one of the test methods in the new model, i.e. other methods can be applied.

The full text can be read through the link below:

*http://xeber365.com/haber-hamlet-isaxanli-test-usulu-l-gv-oluna-bilm-z-11369.html#Kalibri*